AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiya Qərarı |
| Qəbul edildiyi tarix | 28.12.2015 |
| Qeydiyyat nömrəsi | 11-N |
| Adı | “Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları”nın təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 06.01.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 380.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201512280011 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 05.01.2016 |

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 04.10.2000-ci il tarixli 401 nömrəli Fərmanının 2.2-ci bəndinin icrası məqsədi ilə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndinə əsasən Kollegiya

QƏRARA ALIR:

1. “Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).
3. Qeyd olunan Qaydaların qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla düzgün və dürüst icrası təmin olunsun (İ.Məmmədov)
4. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

Azərbaycan Respublikasının

ədliyyə naziri

I dərəcəli dövlət ədliyyə

Müşaviri Fikrət Məmmədov

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 28 dekabr 2015-ci il tarixli 11-N nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi**

Q A Y D A L A R I

1. ÜMUMİ MÜDDƏALAR

1.1. “Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları” (bundan sonra - Qaydalar) “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 30-1-ci maddəsindən, habelə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 9.13-cü bəndindən irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. QHT - qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri;

1.2.2. fəaliyyətin öyrənilməsi - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi, habelə müəyyən edilmiş ərazi yurisdiksiyası daxilində regional ədliyyə idarələri (bundan sonra - ədliyyə orqanı) tərəfindən həyata keçirilən bu Qaydalarla müəyyən edilmiş tədbirlərin məcmusu; [1]

1.2.3. QHT-lərin vəzifəli şəxsləri - təşkilatın təkbaşına icra orqanı, struktur qurumların rəhbərləri, habelə kollegial icra orqanlarına daxil olan və nizamnamə (əsasnamə) ilə müəyyən edilmiş səlahiyyətlərə malik olan şəxslər;

1.2.4. “Fərdi elektron pəncərə” - Azərbaycan Respublikası Prezidentinin “Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2013-cü il 20 noyabr tarixli 26 nömrəli Fərmanına əsasən yaradılmış elektron məlumat sistemi.

1.3. Bu Qaydalar QHT-lərin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsinin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

1.4. Bu Qaydalar QHT-lər tərəfindən qanunvericiliyə və nizamnamə məqsədlərinə riayət edilməsinin təmin olunmasına, onların fəaliyyətində hüquq pozuntularının aşkar edilməsi və qarşısının alınmasına, habelə bu QHT-lərdən qanunvericiliyə zidd məqsədlərlə istifadə olunması imkanlarını istisna edən şəraitin yaradılmasına, cəmiyyətin və həmin təşkilatların maraqlarının qorunmasına yönəlmişdir.

1.5. Regional ədliyyə idarələri QHT-lərin fəaliyyətinin öyrənilməsinin nəticələri barədə hər yarım il üzrə (iyunun və dekabrın 30-dək) Qeydiyyat və notariat baş idarəsinə ümumiləşdirilmiş məlumat təqdim etməlidirlər.

1.6. Ədliyyə orqanı QHT-lər tərəfindən təqdim olunmuş məlumatların təhlükəsizliyini və onların yalnız Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadəsini təmin edir.

1.7. QHT-lərin fəaliyyətinin öyrənilməsi işinə aidiyyəti dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri, habelə ayrı-ayrı sahələr üzrə mütəxəssislər cəlb edilə bilər.

1.8. QHT-lərin fəaliyyəti öyrənilərkən hüquqpozuntularına şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması ilə yanaşı, onların təhlilinə və qabaqlayıcı tədbirlərə də diqqət yetirilməlidir.

1.9. QHT-lərlə ədliyyə orqanı arasında məlumat və sənəd mübadiləsi “Fərdi elektron pəncərə” elektron məlumat sistemi vasitəsilə aparıla bilər.

1.10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən QHT-lərə fəaliyyətlərində qanunvericiliyin tələblərinə əməl edilməsinin təmin olunması ilə əlaqədar dövri təlimlər təşkil edilir.

2. QHT-LƏRİN FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİNİN PREDMETİ VƏ MƏQSƏDİ

2.1. QHT-lərin fəaliyyətinin öyrənilməsi zamanı aşağıdakı məsələlər araşdırılır:

2.1.1. fəaliyyətinin nizamnaməsinə (əsasnaməsinə) uyğunluğu;

2.1.2. Qanunun tələblərinə riayət edilməsi, o cümlədən ali idarəetmə, icra və nəzarət orqanlarının yığıncaqlarının, habelə üzvlərin reyestrinin aparılması, gəlirlərinin təşkilatın məqsədlərinə yönəldilməsi, fəaliyyətində şəffaflığın təmin edilməsi;

2.1.3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsi, o cümlədən Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin dövlət reyestri üçün zəruri olan məlumatların vaxtında təqdim edilməsi, dövlət reyestrində olan sənədlərin qanunvericiliyə uyğunluğu; [2]

2.1.4. illik maliyyə hesabatlarının təqdim olunması, qrant, mühasibat uçotu haqqında qanunvericiliyə riayət edilməsi, maliyyə və təsərrüfat fəaliyyətinin qanunauyğunluğu;

2.1.5. qurumun fəaliyyəti ilə bağlı əlaqəli normativ hüquqi aktlara riayət edilməsi.

2.2. QHT-lərin fəaliyyətinin öyrənilməsi çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı qanunvericiliyin pozulması halları müəyyən edildikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 31.10.2014-cü il tarixli 10-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi" Qaydalarına uyğun tədbirlər həyata keçirilir.

2.3. QHT-lər fəaliyyətlərinin öyrənilməsi zamanı ədliyyə orqanına təqdim etmək üçün öz yazışmaları üzrə kargüzarlığı aparmalı, həyata keçirdiyi layihələrin, maliyyə və mühasibat sənədlərinin, bağladığı müqavilələrin və digər sənədlərin təsdiq olunmuş surətlərini ayrıca qovluqda saxlamalıdırlar.

2.4. Kargüzarlıq sənədlərin daxil olduğu (imzalanaraq təsdiq olunduğu) müddətlər, bank və digər sənədlərin tərtib olunduğu və ya təqdim olunduğu tarixlər üzrə aparılır, hər bir sənədə nömrə verilir. Təsis sənədlərinə dəyişikliklər, qurumun fəaliyyətinə (ali və icra orqanlarının qərarları, protokolları və s.), qrant müqavilələrinə (layihələr, layihə üzrə təsdiqedici maliyyə və mühasibatlıq sənədləri ilə birlikdə) dair sənədlər ayrı-ayrı qovluqlarda saxlanılır.

## 3. QHT-LƏRİN FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİ QAYDASI

3.1. QHT-lərin fəaliyyətinin öyrənilməsi 30 gün ərzində həyata keçirilir. Ədliyyə orqanının rəhbərinin yazılı razılığı əsasında QHT-nin fəaliyyətinin öyrənilməsi müddəti 30 gün artırıla bilər.

3.2. QHT-lərin fəaliyyətinin öyrənilməsi plan üzrə və ya plandankənar keçirilir. Hər il dekabr ayında növbəti il üzrə fəaliyyətinin öyrənilməsi nəzərdə tutulan QHT-lərin siyahısı hazırlanır və ədliyyə orqanının rəhbəri tərəfindən təsdiq olunur. Regional ədliyyə idarələrinin rəhbərləri təsdiq etdikləri siyahını və QHT-lərin fəaliyyətinin plandankənar öyrənmə hallarını Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi ilə razılaşdırır.

3.3. QHT-lərin fəaliyyətinin plandankənar öyrənilməsi aşağıdakı hallarda həyata keçirilir:

3.3.1. dövlət qurumlarından məlumatlar daxil olduqda;

3.3.2. kütləvi informasiya vasitələrində məlumatlar yayıldıqda, fiziki və hüquqi şəxslərin, habelə QHT-nin iştirakçılarının müraciətləri daxil olduqda;

3.3.3. bilavasitə ədliyyə orqanı tərəfindən pozuntular aşkar edildikdə.

3.4. QHT-lərin fəaliyyətinin öyrənilməsini həyata keçirən şəxslərin QHT ilə birbaşa və ya dolayı yolla əlaqələri (o cümlədən onun vəzifəli şəxsləri ilə yaxın qohumluğu), yaxud onun fəaliyyətində maraqları olmamalıdır. Belə əlaqələri və maraqları olan şəxslər bu barədə ədliyyə orqanının rəhbərinə məlumat verməli və nəzarət tədbirinə cəlb edilməməlidirlər.

3.5. QHT-lərin fəaliyyətinin öyrənilməsi ədliyyə orqanının rəhbərinin (və ya onu əvəz edən şəxsin) əmri ilə rəsmiləşdirilir.

3.6. QHT-nin fəaliyyətinin öyrənilməsi plan üzrə aparıldıqda azı 7 gün, plandankənar aparıldıqda isə azı 1 gün əvvəl bu barədə həmin QHT-yə yazılı məlumat verilməlidir.

3.7. Ədliyyə orqanı Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə" ilə müəyyən edilmiş vəzifələrin icrası ilə əlaqədar zəruri məlumatların (sənədlərin) təqdim edilməsini, o cümlədən tərtib etdiyi sorğu vərəqəsinin cavablandırılmasını QHT-dən tələb etmək, həmin məlumatlara (sənədlərə) baxış keçirmək və onların surətini çıxarmaq hüququna malikdir. QHT-lərin fəaliyyətinin öyrənilməsi zamanı izahatlar alına və müzakirələr keçirilə bilər.

3.8. QHT-lərin vəzifəli şəxsləri ədliyyə orqanının fəaliyyətini çətinləşdirən hərəkətlərə yol verməməli və fəaliyyətin öyrənilməsinə şərait yaratmalıdırlar.

3.9. Tələb olunan məlumatlar (sənədlər) vaxtında təqdim edilmədikdə və ya mövcud olmadıqda bu barədə protokol tərtib olunur, protokolda QHT-nin vəzifəli şəxsinin məsələ ilə bağlı yazılı izahatı əks olunur. QHT-lərin fəaliyyətinin öyrənilməsinə maneələrin yaradılması, o cümlədən sorğulara cavab verilməməsi, tələb olunan sənədlərin və məlumatların təqdim edilməməsi, yanlış məlumatların verilməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

3.10. QHT-lərin fəaliyyətinin öyrənilməsi ədliyyə orqanından asılı olmayaraq mümkün olmadığı və ya gecikdiyi hallarda, o cümlədən qurumun vəzifəli şəxsləri xəstələndikdə, ölkədən kənarda olduqda və ya tələb olunan sənədlər digər üzürlü səbəblərə görə vaxtında təqdim edilmədikdə ədliyyə orqanının rəhbərinin əmri ilə həmin hallar aradan qaldırılanadək təşkilatın fəaliyyətinin öyrənilməsi müddətinin axını dayandırıla bilər.

3.11. Ədliyyə orqanı QHT-lərin fəaliyyətinin öyrənilməsi çərçivəsində dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi şəxslərə sorğularla müraciət edə bilər, fiziki şəxslərdən tələb olunan sənədləri əldə edə bilər.

## 4. QHT-LƏRİN FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİNİN NƏTİCƏLƏRİNİN RƏSMİLƏŞDİRİLMƏSİ

4.1. QHT-lərin fəaliyyətinin öyrənilməsinin nəticələri aktla rəsmiləşdirilir. QHT-nin fəaliyyətinin öyrənilməsinin nəticəsi üzrə bu Qaydaların 4.4.3 və 4.4.4-cü yarımbəndlərində göstərilən hallar aşkar olunduqda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyinə bu barədə məlumat verilir.

4.2. Aktda aşağıdakılar əks olunur:

4.2.1. QHT-nin adı, təşkilati-hüquqi forması, qeydiyyat tarixi və nömrəsi, rəhbərinin (vəzifəli şəxsin) adı, soyadı, atasının adı;

4.2.2. QHT-nin fəaliyyətinin öyrənilməsi tarixi, əhatə etdiyi dövr, həyata keçirilməsi barədə QHT-yə göndərilmiş xəbərdarlığın tarixi və nömrəsi;

4.2.3. fəaliyyətin öyrənilməsini həyata keçirmiş vəzifəli şəxs (şəxslər), aktın tərtib olunma tarixi və tərtib edən şəxs (şəxslər);

4.2.4. fəaliyyətin öyrənilməsinin əhatə etdiyi sahələr (sənədlər), aşkar olunmuş pozuntular və ya çatışmazlıqlar (o cümlədən QHT-nin fəaliyyətinin öyrənilməsi çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanı funksiyalarının həyata keçirilməsinin nəticələri);

4.2.5. QHT-nin fəaliyyətinin təkmilləşdirilməsi və ya aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması barədə tövsiyələr, pozuntularla bağlı görülməsi zəruri olan tədbirlər üzrə təkliflər.

4.3. Akt QHT-nin fəaliyyətinin öyrənilməsi başa çatdıqdan sonra 30 gün ərzində tərtib edilir və ədliyyə orqanının rəhbəri tərəfindən təsdiq olunur.

4.4. Qurumun fəaliyyətinin öyrənilməsi nəticəsində QHT barədə aşağıdakı qərarlar qəbul oluna bilər:

4.4.1. qanun pozuntusunun aşkar olunmaması haqqında;

4.4.2. inzibati xətanın əlamətləri aşkar olunduqda, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş müddətlərdə və qaydada inzibati xəta haqqında iş üzrə icraata başlanılması və aşkar olunmuş pozuntuların aradan qaldırılması haqqında;

4.4.3. cinayət əlamətləri aşkar edildikdə, toplanmış materialların aidiyyəti üzrə prokurorluğa, təhqiqat və ya istintaq orqanlarına göndərilməsi haqqında;

4.4.4. digər pozuntular aşkar edildikdə, toplanmış materialların qanunvericiliklə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədilə aidiyyəti qurumlara göndərilməsi haqqında;

4.4.5. QHT-yə Qanunun 31.2-ci maddəsində müəyyən edilmiş qaydada yazılı xəbərdarlığın edilməsi və pozuntuların aradan qaldırılmasına dair göstərişin verilməsi haqqında.

4.5. QHT-nin fəaliyyətinin öyrənilməsi üzrə akt tərtib olunduqdan sonra aşkar olunmuş pozuntular və çatışmazlıqlar barədə məlumat QHT-nin "Fərdi elektron kabineti"ndə yerləşdirilir və onun ünvanına göndərilir.

4.6. QHT onun fəaliyyətinin öyrənilməsi nəticəsində aşkar olunmuş pozuntular və ya çatışmazlıqlar barədə məlumatlandırıldıqdan sonra 30 günədək müddətdə onların aradan qaldırılması barədə ədliyyə orqanına məlumat verməlidir.

## 5. ƏDLİYYƏ ORQANININ ƏMƏKDAŞLARININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. QHT-lərin fəaliyyətinin öyrənilməsi zamanı ədliyyə orqanının əməkdaşı aşağıdakı hüquqlara malikdir:

5.1.1. QHT-nin yerləşdiyi ünvana daxil olmaq, fəaliyyətinin öyrənilməsi məqsədilə lazımi sənədləri əldə etmək, onun vəzifəli şəxslərindən izahat tələb etmək;

5.1.2. sənədləşmənin kompüter vasitəsi ilə aparıldığı və orada saxlanıldığı halda həmin məlumatlarla tanış olmaq, onların QHT tərəfindən təsdiq olunmuş surətlərini əldə etmək;

5.1.3. QHT-nin vəzifəli şəxsi ilə yoxlanılan məsələlər barədə müzakirələr aparmaq;

5.1.4. xidməti vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

5.2. Ədliyyə orqanının əməkdaşlarının vəzifələri aşağıdakılardır:

5.2.1. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa, digər normativ hüquqi aktlara və bu Qaydalara riayət etmək;

5.2.2. xidməti vəzifələrini, rəhbəri tərəfindən verilmiş əmr, göstəriş və tapşırıqları peşəkarlıqla və vicdanla yerinə yetirmək;

5.2.3. QHT-nin təmsilçiləri ilə nəzakətlə davranmaq;

5.2.4. sənədlərə diqqətlə yanaşmaq, onların itirilməsi və ya korlanmasının qarşısını almaq;

5.2.5. QHT-nin fəaliyyətinin öyrənilməsi zamanı onun fəaliyyətinə maneə yaratmamaq;

5.2.6. təqdim olunmuş sənədlərin konfidensiallığını təmin etmək;

5.2.7. yaranan hər hansı mübahisəli məsələni müvafiq etik davranış qaydalarına uyğun olaraq və peşəkarcasına həll etmək, onlar barədə təxirə salınmadan rəhbərliyinə məlumat vermək.

## 6. FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİ ZAMANI QHT-NİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1. Fəaliyyətinin öyrənilməsi zamanı QHT-lər aşağıdakı hüquqlara malikdir:

6.1.1. QHT-nin fəaliyyətinin öyrənilməsi barədə ədliyyə orqanının rəhbərinin əmri ilə tanış olmaq;

6.1.2. ədliyyə orqanının əməkdaşlarının xidməti vəsiqələri ilə tanış olmaq;

6.1.3. fəaliyyətinin öyrənilməsinin nəticələrini müzakirə etmək və onlara dair münasibət bildirmək;

6.1.4. qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyətinin öyrənilməsinin nəticələrindən yuxarı orqana və ya məhkəməyə şikayət etmək.

6.2. QHT-nin rəhbəri (vəzifəli şəxsi) aşağıdakı vəzifələri həyata keçirir:

6.2.1. fəaliyyətinin öyrənilməsi üçün ədliyyə orqanının əməkdaşlarına lazım olan sənədləri, onlardan çıxarışları təqdim etmək, təqdim edilməsi tələb olunmuş sənədləri təsdiq etmək;

6.2.2. ədliyyə orqanının əməkdaşlarına ayrıca yer ayırmaq, fəaliyyətin öyrənilməsi ilə əlaqədar əldə edilmiş sənədlərin qorunmasını, habelə surətçıxarma və tələb olunan digər texnikadan istifadə imkanının yaradılmasını təmin etmək;

6.2.3. fəaliyyətinin öyrənilməsi zamanı yaranan bütün məsələləri çevik şəkildə həll etmək;

6.2.4. ədliyyə orqanı əməkdaşlarının hüquqlarına riayət edilməsini təmin etmək.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 28 dekabr 2016-cı il tarixli 21-N nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201612280021, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 29 dekabr 2016-cı il)

2. 29 iyun 2017-ci il tarixli 15-N nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201706290015, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 29 iyun 2017-ci il)

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 28 dekabr 2016-cı il tarixli 21-N nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201612280021, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 29 dekabr 2016-cı il) ilə "Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları"nın 1.2.2-ci yarımbənddə, 1.5-ci bənddə və 3.2-ci bəndin üçüncü cümləsində bütün hallarda ismin müvafiq hallarında "şöbə" sözü ismin müvafiq hallarında "idarə" sözü ilə əvəz edilmişdir.

[2] 29 iyun 2017-ci il tarixli 15-N nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201706290015, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 29 iyun 2017-ci il) ilə "Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları"nın 2.1.3-cü yarımbəndindən "və təhsil müəssisələrinin" sözləri çıxarılmışdır.